**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# DİDAKTİK OYUNLAR KİÇİKYAŞLI MƏKTƏBLİLƏRDƏ BƏDİİ YARADICILIQ QABİLİYYƏTLƏRİNİN FORMALAŞDIRILMASI VASİTƏSİ KİMİ

İxtisas: 5804.01 – "Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi"

Elm sahəsi: Pedaqogika

İddiaçı: **Şəhla Zal qızı Süleymanova**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Naxçıvan - 2022**

Dissertasiya işi Naxçıvan Dövlət Universitetinin "Pedaqogika və psixologiya" kafedrasında yerinə yetirilmişdir

Elmi rəhbər: Pedaqoji elmlər doktoru, professor
**Fərahim Balakişi oğlu Sadıqov**

Rəsmi opponentlər: Pedaqogika üzrə elmlər doktoru, dosent
**Şəhla Qasım qızı Əliyeva**

Pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**Vidadi Paşa oğlu Bəşirov**

Pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**Mahir Xanlar oğlu Xəlilov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Naxçıvan Müəllimlər İnstitutu nəzdində fəaliyyət göstərən FD 2.40 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: _______ Pedaqoji emlər doktoru, professor
**İsmayıl İsrafil oğlu Əliyev**

Dissertasiya şurasının elmi katibi: _______ Pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**Qızıltac Tarverdi qızı Şahbazova**

Elmi seminarın sədri: _______ Pedaqoji elmlər doktoru, professor
**Ləzifə Nağı qızı Qasımova**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycanda həyata keçirilən təhsil islahatlarına dair dövlət direktivlərində ibtidai sinif şagirdlərinin estetik mədəniyyətinin inkişaf etdirilməsi, bədii zövqlərinin formalaşdırılması və asudə vaxtlarının səmərəli təşkili fənn müəllimlərinin qarşısında mühüm vəzifələr qoyur. Bu vəzifələrin müvəffəqiyyətlə həyata keçirilməsi ibtidai sinif müəllimlərinin kompetensiyalara əsaslanan fəaliyyət proqramı hazırlamaları ilə şərtlənir. Çünki ibtidai sinif müəllimlərinin kompetensiyalara əsaslanan təhsilin məzmununun yaradılması ilə bağlı fəaliyyət istiqamətlərinin düzgün müəyyənləşdirilməsi mühüm aktuallıq kəsb edir. Müəllimlərin kompetensiyalara əsaslanması didaktik oyunların kreativ təşkilinə şərait yaratmış olur. Didaktik oyunların kreativ təşkili isə ayrılıqda götürüldükdə öz aktuallığı ilə diqqəti cəlb edir. Belə aktual məsələyə məsuliyyətlə yanaşılması ibtidai sinif müəllimlərinin şəxsiyyətyönümlü təhsilin məzmununun yaradılmasına da düzgün istiqamət vermiş olur.

Təsadüfi deyil ki, "Azərbaycanda Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası"nda əsas istiqamətlərdən biri şəxsiyyətyönümlü təhsilin məzmununun yaradılması ilə bağlıdır. Mühüm aktuallığı ilə səciyyələnən bu məsələ ibtidai sinif müəllimləri üçün də prioritetlik kəsb edir. Çünki ibtidai sinif müəllimləri fənlərin tədrisi prosesində didaktik oyunların kreativ təşkilinə məqsədyönlü, planlı, mütəşəkkil yanaşmaqla, uşaqların hərtərəfli inkişafını və eləcə də onların bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılmasını təmin etmiş olurlar. Bu baxımdan, didaktik oyunların təşkili zamanı kiçikyaşlı məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması istiqamətində tədqiqatların aparılması zəruri və gərəklidir. Birincisi ona görə ki, Azərbaycanda həyata keçirilən təhsil islahatlarına dair direktiv sənədlərdə təlim prosesində oyunların təşkilinə kreativ yanaşılması məxsusi vurğulanmışdır. İkincisi, ölkəmizdə müvəffəqiyyətlə həyata keçirilən Milli kurikulum üzrə təlim prosesində mövzulara uyğun oyunların təşkili özü də bir aktuallıq təşkil edir. Təsadüfi deyil ki, kurikulum materiallarında humanitar

fənlərin tədrisində rollu oyunlardan istifadənin mühüm əhəmiyyətə malik olması xüsusilə nəzər nöqtəsinə çəkilmişdir. Ona görə ki, rollu oyunlar uşaqlara biliklərin əsaslarını öyrətməklə yanaşı, onların fiziki-fizioloji inkişafını, intellektual fəallığını və ən əsası şəxsiyyətyönümlülük səviyyəsini yüksəldir.

Təlim prosesində ibtidai sinif şagirdlərinin bədii yaradıcılığa sövq edilməsi onların həm yaradıcı təfəkkürünün, həm də təxəyyül səviyyələrinin yüksəltməsinə xidmət edir. Bu prosesdə şagirdlərin qabiliyyətlərinin aşkara çıxarılması onların istedadlılıq və talantlılıq səviyyəsinin də yüksəldilməsinə kömək etmiş olur. Ona görə ki, didaktik oyunların kreativ təşkili zamanı ibtidai sinif şagirdlərinin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması onların məqsədyönlü fəaliyyətinin müvəffəqiyyətli icrasına çevrilir.

İbtidai siniflərdə humanitar fənlərin tədrisi zamanı, o cümlədən Azərbaycan dili, həyat bilgisi, təsviri incəsənət, musiqi və xarici dil dərslərində didaktik oyunları kreativ şəkildə təşkil etməklə, şagirdlərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılmasına məqsədyönlü, planlı, mütəşəkkil olaraq yanaşmaq lazımdır.

Azərbaycanın görkəmli pedaqoq alimlərindən Əliheydər Həşimov, Vidadi Xəlilov, Sabir Quliyev, Oqtay Rəcəbov, Fərahim Sadıqov, Nürəddin Kazımov və bu kimi digər tədqiqatçılar öz əsərlərində didaktik oyunların estetik tərbiyə baxımından əhəmiyyətinə dair mülahizələr söyləmişlər. Lakin onların heç biri didaktik oyunların təşkili ilə bağlı geniş tədqiqatlar aparmamış və bu oyunların kiçikyaşlı məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması üçün vasitə olmasına dair elmi ideyalar irəli sürməmişlər. Bütün bunları nəzərə alaraq biz dissertasiyanı didaktik oyunların kiçikyaşlı məktəblilərdə bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması probleminə həsr etmişik.

**Tədqiqatın obyekt və predmeti.** *Tədqiqatın obyekti* didaktik oyunlar vasitəsilə kiçikyaşlı məktəblilərdə bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması prosesidir.

*Tədqiqatın predmeti* kimi orta ümumtəhsil məktəblərinin ibtidai siniflərində didaktik oyunların təşkilini həyata keçirərkən şagirdlərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması problemi

götürülmüşdür.

**Tədqiqatın məqsəd və vəzifələri.**

Müstəqillik dövründə "Azərbaycanda Təhsilin İnkişafı üzə Dövlət Strategiyası"nın tələblərinə müvafiq olaraq şəxsiyyətyönümlü təhsilin məzmununun yaradılması istiqaməti üzrə didaktik oyunları təşkil etməklə şagirdlərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılmasına nail olmaq dissertasiyanın əsas məqsədidir.

Tədqiqatın məqsədinə uyğun aşağıdakı vəzifələr müəyyən edilmişdir:

- Didaktik oyunların təşkili zamanı kiçikyaşlı məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması işinin mahiyyətini aydınlaşdırmaq;
- Problemin qoyuluşunu müəyyənləşdirmək;
- Problemin elmi-pedaqoji ədəbiyyatda qoyuluşunu müqayisəli şəkildə şərh etmək;
- Problemin məktəb təcrübəsindəki qoyuluşunu araşdırmaq, öyrənmək və ümumiləşdirmək;
- Problemin pedaqoji-psixoloji əsaslarını müəyyənləşdirmək;
- Təlim prosesində didaktik oyunların təşkili zamanı kreativliyin nəzərə alınmasının elmi, pedaqoji, metodik əsaslarını öyrənib şərh etmək;
- Didaktik oyunların təşkilində yaradıcı yanaşmanın kiçikyaşlı məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılmasına təsirinin əsas istiqamətlərini, imkanlarını və səmərəli yollarını müəyyənləşdirib elmi şəkildə şərh etmək;
- Didaktik oyunların təşkilində yaradıcı yanaşmanın kiçikyaşlı məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılmasına təsirinin səmərəli yollarını müəyyənləşdirmək;
- İşçi fərziyyənin doğruluğunu sübuta yetirmək məqsədi ilə didaktik oyunların kreativ təşkili zamanı kiçikyaşlı məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılmasının reallaşdırılmasına xidmət edən eksperimental işi 3 mərhələdən ibarət həyata keçirmək;
- Alınan nəticələri ümumiləşdirmək.

**Tədqiqatın fərziyyəsi**. Əgər ibtidai siniflərdə humanitar

fənlərin tədrisində, eləcə də dərsdənkənar tədbirlərdə didaktik oyunların təşkilinə məqsədyönlü şəkildə yanaşılarsa, kiçikyaşlı məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılmasına nail olmaq olar.

**Tədqiqatın metodları.** Dissertasiya üzərində aparılan araşdırmalar zamanı aşağıdakı tədqiqat metodlarından istifadə edilmişdir: müşahidə, müsahibə, anket soruğusu, nəzəri təhlil, məktəb sənədlərinin öyrənilməsi, müqayisəli şərh və pedaqoji eksperiment

**Müdafiəyə aşağıdakı müddəalar çıxarılır:**

**1.** Didaktik oyunların kreativ təşkili probleminin mahiyyətinin elmi-pedaqoji ədəbiyyatda və məktəb təcrübəsində qoyuluşunun məqsədyönlü, planlı və mütəşəkkil olaraq öyrənilməsi kiçikyaşlı məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması sahəsində mühüm əhəmiyyət kəsb edir;

**2.** Kiçikyaşlı məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması zamanı didaktik oyunlardan istifadə şagirdlərin bilik, bacarıq, vərdişlər sisteminin formalaşdırılmasını təmin etmiş olur;

**3.** Didaktik oyunların təşkili prosesində kiçikyaşlı məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması işinin düzgün təşkili kiçikyaşlı məktəblilərin idrak fəallığını artırmış olur;

**4.** Didaktik oyunların təşkili şagirdlərin bədii yaradıcılıq qabiliyyətlərini formalaşdırmaqla yanaşı, onların mədəni istirahətini də təşkil etmiş olur;

**5.** Didaktik oyunların təşkili zamanı ibtidai sinif müəllimlərinin peşə kompetensiyalarına əsaslanması ibtidai sinif şagirdlərinin intellektual səviyyələrini və estetik-bədii zövqlərini formalaşdırmış olur;

**6.** Didaktik oyunların təşkili prosesində kiçikyaşlı məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması imkanlarının və səmərəli yollarının düzgün müəyyənləşdirilməsi istedadlı şagirdlərin aşkara çıxarılmasına şərait yaratmış olur.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyada ilk dəfə olaraq ibtidai siniflərin təlim-tərbiyə prosesində didaktik oyunların təşkilinə xidmət

edən yeni iş modeli hazırlanmışdır. Yeni nəzəri konsepsiyada ibtidai sinif müəllimlərinin kompetensiyalara əsaslanması, didaktik oyunların təşkili və bu didaktik oyunların növlərinin yeniləşdirilməsi, modernləşdirilməsi ilə bağlı həyata keçirilən işlər də öz əksini tapmışdır.

**Tədqiqatın nəzəri əhəmiyyəti**. Tədqiqatın nəzəri əhəmiyyəti ondan ibarətdir ki, didaktik oyunların təşkili işinin mahiyyəti, məzmunu, məqsəd və vəzifələri müəyyən edilmiş, didaktik oyunların təşkilində kiçikyaşlı məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması işinin imkanları, yolları müəyyənləşdirilmişdir.

**Tədqiqatın praktik əhəmiyyəti**. Tədqiqatın praktik əhəmiyyəti ondan ibarətdir ki, orta ümumtəhsil məktəblərinin ibtidai siniflərində didaktik oyunların təşkili üzrə qabaqcıl məktəb təcrübəsi öyrənilərək ümumiləşdirilmiş və pedaqoji-psixoloji əsasları müəyyənləşdirilmişdir.

Didaktik oyunların təşkili zamanı şagirdlərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması ilə bağlı sınaqdan keçirilən nümunələrdən, didaktik oyunların növləri üzrə modernləşdirilmiş fəaliyyət istiqamətlərindən ibtidai sinif müəllimləri bəhrələnə bilərlər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Dissertasiyanın mövzusu Azərbaycan Milli Elmlər Akademiyasının Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurası Pedaqogika üzrə Elmi Şurasının 25 dekabr 2019 – cu il tarixli iclasında qeydə alınmış və Naxçıvan Dövlət Universiteti Elmi Şurasının 31 yanvar 2017 – ci il tarixli iclasında (protokol № 05) təsdiq edilmişdir. Təklif edilən iş sistemi Naxçıvan Muxtar Respublikasının şəhər məktəblərində, o cümlədən 11, 12, 6, 9, 4 №-li tam orta məktəblərdə, Babək, Kəngərli, Ordubad, Şahbuz rayonlarının Nehrəm, Qarabağlar, Yurdçu, Biçənək kənd məktəblərinin ibtidai siniflərində tətbiq olunmuşdur. Dissertasiyada öyrənilən problemlə bağlı Azərbaycan Respublikasının Ali Attestasiya Komissiyasının təsdiq etdiyi nüfuzlu jurnallarda ümumilikdə 12 elmi məqalə və konfrans materialı nəşr olunmuşdur ki, onlardan 3 məqalə və konfrans materialı xaricdə nəşr etdirilmişdir.

Dissertasiya işi **Naxçıvan Dövlət Universitetinin "Pedaqogika və psixologiya"** kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın quruluşu və həcmi.** Dissertasiya giriş, 2 fəsli əhatə edən 7 paraqraf, nəticə və ədəbiyyat siyahısından ibarətdir. "Giriş" 8 səhifə –11888 işarə, I fəsil 67 səhifə –126768 işarə, II fəsil 59 səhifə – 110391 işarə, "Nəticə" 4 səhifə – 6631 işarədir. Ümumi həcmi 154 səhifə – 255678 işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Girişdə** tədqiqatın aktuallığı əsaslandırılır, problemin işlənmə dərəcəsi, obyekt və predmeti, məqsəd və vəzifələri, tədqiqatın fərziyyəsi və metodları, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, aprobasiyası və tətbiqi, dissertasiyanın quruluşu və həcmi barədə yığcam məlumat verilir.

Dissertasiyanın birinci fəsli **"Didaktik oyunların təşkili prosesində kiçikyaşlı məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması işinin mahiyyəti, məzmunu, məqsəd və vəzifələri"** adlanır. Bu fəsil 4 paraqrafdan ibarətdir. **"Didaktik oyunların təşkili prosesində kiçikyaşlı məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması işinin mahiyyəti"** adlanan birinci paraqrafda didaktik oyunlar anlayışının mahiyyəti aydınlaşdırılmış, bu zaman didaktik materiallardan istifadə etməklə təşkil olunan oyunların şagirdlərin bilik, bacarıq, vərdişlər sisteminin möhkəmləndirilməsinə və onların asudə vaxtlarının səmərəli təşkilinə müsbət təsiri haqqında məlumat verilmişdir. Qeyd edilmişdir ki, ibtidai siniflərdə kiçikyaşlı məktəblilərdə təlimə marağın artırılması, onların müstəqil fəaliyyətə alışdırılması, şəxsiyyətyönümlü inkişafının təmin edilməsi, habelə onların milli - mənəvi və ümumbəşəri dəyərlərlə tanış edilməsi və bütövlükdə, geniş elmi dünyagörüşə yiyələnmələri üçün didaktik oyunların təşkili mühüm əhəmiyyət kəsb edir. Həmçinin I-IV siniflərdə istər təlim prosesində, istərsə də dərsdənkənar tədbirlərdə kiçikyaşlı məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşması üçün təşkil olunan didaktik oyunların məqsədəmüvafiqliyi göstərilmişdir.

Əlbəttə ki, Milli kurikulumun tələblərinə müvafiq olaraq

kompotensiyalara əsaslanan təlimin yeni məzmununun yaradılması ibtidai sinif müəllimlərinin qarşısında duran ən mühüm vəzifələrdən biridir. Bu vəzifələrin müvəffəqiyyətli həlli üçün fənlərin tədrisi prosesində didaktik oyunların kreativ şəkildə təşkili kompotensiyalara əsaslanan təhsilin tərkib hissələrindən biri hesab olunur. Ona görə ki, kompotensiyalara əsaslanan təhsilin tələbləri baxımından didaktik oyunların kreativ təşkili zamanı şagirdlərin yeni biliklərə yiyələnməsi zəminində onlarda şəxsiyyətyönümlülük, şagirdyönümlülük, tələbyönümlülük, interaktivlik, nəticəyönümlülük səviyyələrinin qeyd olunan standartlara uyğun formalaşdırılması məqsduyğun olmalıdır. Paraqrafda didaktik oyunların növlərinin, yəni süjetli-rollu didaktik oyunların, musiqili-didaktik oyunların, hərəkətli-rollu didaktik oyunların, intellektual-didaktik oyunların, təbiət hadisələrinə dair didaktik oyunların, milli-mənəvi dəyərlərə dair didaktik oyunların, etnopedaqoji nümunələrə dair didaktik oyunların mahiyyəti aydınlaşdırılmış, bu oyunların müstəqillik dövrünün tələblərinə cavab verəcək üslubda təşkil edilməsi əks olunmuşdur.

Paraqrafda aparılan təhlillər sübut edir ki, didaktik oyunların kreativ təşkili prosesində kiçikyaşlı məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması üçün geniş imkanlar vardır. Bu imkanlardan istifadə etməklə kiçikyaşlı məktəblilər üçün onların yaşına, fərdi xüsusiyyətlərinə, qavrama qabiliyyətlərinə və eləcə də bədii zövqlərinə, ən əsası isə bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılmasına təsir edən didaktik oyunlar hazırlamaq lazımdır.

I fəslin **ikinci paraqrafı “Didaktik oyunların təşkilində kiçikyaşlı məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması probleminin ədəbiyyatda qoyuluşu”** adlanır.

Araşdırmalar göstərir ki, İ.İ.İrzaquliyeva, M.M.Mehdizadə, M.Ə.Muradxanov, Ə.Ş.Həşimov, N.M.Kazımov, Ə.Ə.Ağayev, Y.R.Talıbov, F.B.Sadıqov, O.Q.Həsənli, F.A.Rüstəmov və digər müəlliflər tərəfindən nəşr etdirilən “Pedaqogika”, “Məktəb pedaqogikası”, “Ali məktəb pedaqogikası” kimi dərslik və dərs vəsaitlərində istər oyunlara, istər didaktik oyunlara yer verilməmiş, istərsə də şagirdlərin bədii yaradıcılığına dair fəsillər və ya

paraqraflarda həmin məsələlər öz əksini tapmamışdır.

Ölkəmizdə musiqi tərbiyəsi ilə bağlı, muğamların tədrisi ilə əlaqədar tədqiqatları pedaqogika elmləri doktoru, professor, Prezident təqaüdçüsü Oqtay Rəcəbov aparmışdır. Oqtay Rəcəbovun tədqiqatlarında həm musiqi tərbiyəsi, həm musiqi təlimi, həm Azərbaycan xalq mahnıları, həm bəstəkar nəğmələri, həm dünya xalqlarının mahnı rəqsləri, həm də milli muğamlarla bağlı maraqlı fikirlərə, dəyərli elmi ideyalara rast gəlmək olur. Lakin onun "Kiçikyaşlı məktəblilərin musiqi tərbiyəsində Azərbaycan bəstəkarlarının uşaq mahnıları"[1] adlı dissertasiya əsərində kiçikyaşlı məktəblilərin musiqi tərbiyəsi yer alır. Pedaqogika elmləri namizədi proqramı əsasında müdafiə olunan bu dissertasiya əsərində kiçikyaşlı məktəblilərin musiqi tərbiyəsində mahnıların öyrədilməsi vasitələrindən və yollarından bəhs olunur. Lakin dissertasiya boyu yalnız bir-iki cümlədə uşaq mahnılarından didaktik oyunlarda istifadənin əhəmiyyəti məsələsi epizodik olaraq yer alır. Hansı ki, belə epizodik yanaşmalar şagirdlərin musiqi mədəniyyətinin formalaşdırılması problemi kimi irəli sürülür. Dissertasiyada ibtidai sinif şagirdlərinin musiqi mədəniyyətinin formalaşdırılmasında didaktik oyunların əhəmiyyəti məsələsinə də epizodik olaraq toxunulur. Yəni Oqtay Rəcəbov dissertasiya əsərində didaktik oyunların əhəmiyyəti ilə bağlı epizodik yanaşmalara yol versə də, didaktik oyunların təşkili prosesində kiçikyaşlı məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması ilə bağlı heç bir elmi ideyalar irəli sürmür, bu məsələnin üzərindən sükutla keçir.

Oyunlarla bağlı ən geniş informasiyalar H.M.Hacıyeva, Z.Y.Musayeva, Z.Z.Əhmədova, G.H.Hüseynova, G.E.Verdiyeva tərəfindən hazırlanan "Həyati bacarıqlara əsaslanan təhsil" adlı tədris vəsaitində öz əksini tapır. Bu vəsaitdə ibtidai siniflərdə dərsin mərhələlərindən birinin oyun adlandırılması müsbət hal olsa da, həmin oyunların təşkili və tətbiqi prosesində şagirdlərin bədii yaradıcılıq

---

[1] Rəcəbov, O.M. Kiçikyaşlı məktəblilərin musiqi tərbiyəsində Azərbaycan bəstəkarlarının uşaq mahnıları: / pedaqogika elmlər namizədi dis. avtoreferatı. / - Moskva, 1985. -26 s.

qabiliyyətlərinin formalaşdırılması ilə bağlı metodik göstərişlərin olmaması təəssüf hissi doğurur.

Müxtəlif dissertasiyalarda həm məktəbəqədəryaşlı, həm də kiçikyaşlı məktəblilərin estetik tərbiyəsinin inkişafı məsələləri yer alsa da, didaktik oyunlar təsnif edilməmiş və bu oyunlar vasitəsilə şagirdlərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması məsələlərinə toxunulmamışdır.

Hətta rusdilli, türkdilli ədəbiyyatlarda, müraciət etdiyimiz internet saytlarında da məsələnin hərtərəfli araşdırılmasına təsadüf edilmədi. Bu mənbələrdə didaktik oyunlardan ya bəhs edilmir, ya da üstüörtülü danışılır.

I fəslin üçüncü paraqrafı **“Didaktik oyunların təşkilində kiçikyaşlı məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması probleminin məktəb təcrübəsində qoyuluşu”** adlanır. Burada tədqiqat planına uyğun olaraq Naxçıvan Muxtar Respublikasının həm şəhər, həm də kənd məktəblərində ibtidai sinif müəllimlərinin didaktik oyunların təşkilinə olan münasibəti öyrənilmiş, aşağıdakı məsələlərin təhlil edilib ümumiləşdirmələr aparılması məqsədəmüvafiq hesab edilmişdir:

1. Şəhər və kənd məktəblərində ibtidai sinif müəllimlərinin dərslərində iştirak etmək və problemin məqsədinə uyğun müşahidələr aparmaq;
2. Birinci siniflərdə savad təlimi dövründə ibtidai sinif müəllimləri tərəfindən təşkil olunan didaktik oyunları müşahidə edib qeydlər aparmaq;
3. I-IV siniflərin “Azərbaycan dili” dərslərini müşahidə etmək və təşkil olunan didaktik oyunlarla bağlı qeydlər aparmaq;
4. I-IV siniflərdə “Həyat bilgisi” dərslərini dinləmək və didaktik oyunlarla bağlı müvafiq qeydlər aparmaq
5. I-IV siniflərdə “Musiqi” dərslərini dinləmək və musiqi müəllimlərinin didaktik oyunların təşkilinə olan münasibətlərini öyrənmək;
6. I-IV siniflərdə “Təsviri incəsənət” dərslərini müşahidə etmək və təsviri incəsənət müəllimlərinin didaktik oyunların təşkili təcrübəsini öyrənmək;

7. İbtidai sinif şagirdlərinin iştirakı ilə təşkil olunan dərsdənkənar tədbirlərdə didaktik oyunların vəziyyətini öyrənmək;

8. Bədii yaradıcılıq dərnəklərində və maraq kurslarında didaktik oyunların təşkili vəziyyətini öyrənmək;

9. I - IV siniflərdə təlim prosesində ibtidai sinif müəllimlərinin şagirdlərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması ilə bağlı iş təcrübəsini öyrənmək.

Nəzərdə tutulanların məqsədyönlü, planlı olaraq həyata keçirilməsi üçün Naxçıvan şəhərindəki 4, 6, 9, 11, 12 №-li tam orta məktəblərində, Ordubad rayonunun 1 №-li, 2 №-li tam orta məktəblərində, Kəngərli rayon Qarabağlar kənd 1№-li, 2 №-li tam orta məktəblərində, Yurdçu kənd tam orta məktəbində, Babək rayon Nehrəm kənd 1 №-li, 2 №-li tam orta məktəblərində, Şahbuz rayon Biçənək kənd tam orta məktəbində müşahidələr aparıldı, dərslər dinlənildi və ibtidai siniflərdə didaktik oyunların təşkili vəziyyəti aydınlaşdırıldı. Müşahidələrə əsasən, ənənəvi qaydalara əməl edən ibtidai sinif müəllimləri çox təsadüfi hallarda əqli hücum, kiçik quruplarla iş, müstəqil iş, müzakirə mərhələləri üzrə işlərin həyata keçirilməsinə cəhd göstərirlər. Lakin mövzuların öyrədilməsi zamanı təqdimat, pedaqoji innovasiyalarla iş, oyun, şəkillərlə iş, diskussiya, problem situasiya mərhələlərindən istifadə edilməsi müşahidə edilmədi.

Əslində, təhsil haqqında direktiv sənədlərdə ibtidai sinif müəllimlərinin interaktiv təlim modelindən istifadə etmələri zəruri sayılır. Bundan başqa, müəllimin kompetensiyalara əsaslanan dərs tipi üzrə işləməsi sinif müəllimləri qarşısında təxirəsalınmaz vəzifələr kimi qoyulur.

Təəssüf ki, şəhər və kənd məktəblərində dinlədiyimiz "Azərbaycan dili", "Həyat bilgisi", "Musiqi" və "Təsviri incəsənət" dərslərində belə imkanlardan istifadə edən sinif müəllimlərinə rast gəlinmədi.

Elmi-tədqiqat planına uyğun olaraq problemin məktəb təcrübəsindəki qoyuluşunu Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərinin təcrübəsi əsasında öyrəndikdən sonra belə qənaətə gəlmək olar ki, istər şəhər məktəblərində, istərsə də kənd

məktəblərində ibtidai sinif müəllimləri didaktik oyunların təşkilində çətinlik çəkirlər və didaktik oyunların təşkilinə tələb olunan səviyyədə yanaşmırlar

Paraqrafda tədqiqat planına uyğun olaraq problemin məktəb təcrübəsindəki qoyuluşunun vəziyyətini öyrənəndən sonra həm şəhər, həm kənd məktəblərinin ibtidai siniflərində çalışan müəllimlərə metodik istiqamətlər vermək üçün onlara pedaqoji-psixoloji əsaslar üzrə işləməyin qaydaları, didaktik oyunların təşkili işinin əsas istiqamətlərinin müəyyənləşdirilməsi, təlim prosesində və dərsdənkənar tədbirlərdə yeni fəaliyyət modellərinin yaradılması üzrə müsbət təcrübə qazandırmaq məqsədi ilə eksperimental iş davam etdirildi. İlk olaraq pedaqoji eksperimentin birinci – müəyyənedici mərhələsi üzrə iş öz əksini tapmışdır.

I fəslin **"Didaktik oyunların təşkili zamanı kiçikyaşlı məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılmasının pedaqoji-psixoloji əsasları"** adlanan dördüncü paraqrafında ibtidai siniflərdə didaktik oyunların təşkili prosesində şagirdlərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması işinin pedaqoji və psixoloji əsasları müəyyənləşdirilərək təsnif olunmuşdur. Bu zaman ümumpedaqoji prinsiplərdən, ümumdidaktik üsullardan istifadə etmək üçün model yaradılmasının zəruriliyi vurğulanmış, qeyd olunmuşdur ki, təlimin prinsiplərinin, tərbiyənin üsullarının öz məqamında tətbiq olunması problemin müvəffəqiyyətli həllinə köməklik göstərir.

Didaktik oyunların təşkili zamanı təlim-tərbiyənin prinsiplərinə istinad etməyin pedaqoji cəhətdən bir çox üstünlükləri vardır. Birincisi, didaktik oyunlar təlim xarakteri daşıdığı üçün oyunların təşkili prosesində təlimin prinsiplərinə istinad olunması vacib sayılır. İkincisi, didaktik oyunların təşkili və keçirilməsində uşaqların, yəni, oyun iştirakçılarının ideya - siyasi, əxlaqi, mənəvi, əmək, işgüzarlıq, ekoloji, iqtisadi və cinsi tərbiyə baxımından inkişaf etdirilərək formalaşdırılmasına da ehtiyac duyulur.

Həmçinin, didaktik oyunların təşkilində təlimin təhsilləndirici, tərbiyələndirici və inkişafetdirici prinsipi üzrə işlərin həyata keçirilməsinin kiçikyaşlı məktəblilərin təhsillənmə imkanlarının

genişləndirilməsinə, tərbiyənin tərkib hissələri üzrə aparılan tərbiyə işləri onların tərbiyəlilik səviyyəsinin yüksəlməsinə, şagirdlərdə bir sıra müsbət keyfiyyətlər formalaşmasına müsbət təsiri əks olunmuşdur.

Didaktik oyunların keçirilməsi zamanı mövzularının seçilməsindən başlayaraq rol bölgüsü prosesinə qədər tərbiyə üsullarının birindən istifadə olunması, lazım gələrsə, didaktik oyunların gedişindəki bütün proseslərin normal təşkili üçün, o cümlədən şagirdlərin səs və musiqi tərtibatı, aktyorluq və rejissorluq fəaliyyəti, geyim əşyalarının hazırlanması və dekorasiyaların qurulması və digər bu kimi təşkilati işlərin həyata keçirilməsi üçün digər tərbiyə üsullarının tətbiq edilməsinə zəruri ehtiyac duyulur.

Paraqrafda göstərilir ki, ibtidai siniflərdə təşkil olunan didaktik oyunlar zamanı şagirdlərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması işinin psixoloji əsaslarının müəyyənləşdirilməsilə, rollu oyunların təsiri altında yazmağa, oxumağa, şəkil çəkməyə, şeir deməyə maraq göstərən kiçikyaşlı məktəblilərə psixoloji cəhətdən düzgün yanaşmaqla onlarda təlim maraqlarının yaranmasına nail olmaq mümkündür. Uşaqlarda təlimə marağın yaranması onların psixoloji inkişafının əsaslarından biridir. Kiçikyaşlı uşaqlar təbiətləri etibarilə oyun fəaliyyətinə böyük ehtiyac hiss edirlər. Oyun onların sosial təcrübələri ilə, təxəyyül situasiyasını real, həyati situasiya kimi qəbul etmələri ilə bağlıdır. Oyun prosesində uşaq elə zənn edir ki, hər şeyi bacarır. *Adətən, uşaq diqqətini cəlb edən keyfiyyətləri nümayiş etdirməyə cəhd göstərir; o çalışır ki, oyunda valideynlərinin, tərbiyəçinin sosial rolunu həyata keçirsin, lakin bacarmır. Elə bu cəhdetmə artıq uşağın inkişafında öz işini görür. Bu prosesdə uşaq yamsılayır, onun təxəyyülünün obrazlığı artır, oyundan həzz alır. Belə şərait onun idrak marağını inkişaf etdirir. Təlim prosesində şagirdlərin idrak marağının, fəal yaradıcı münasibətlərinin formalaşması xüsusi əhəmiyyət kəsb edir.*[2]

[2] Kərimov, Y. Təlim metodları. Dərs vəsaiti. / Y. Kərimov - Bakı: RS Poliqraf, - 2009. - 279 s.

Didaktik oyun zamanı sağlam psixoloji mühitin yaradılması, oyun iştirakçılarının psixoloji xüsusiyyətlərinin dərindən öyrənilməsi – bir sözlə, bu məsələnin psixoloji əsaslarının düzgün müəyyənləşdirilməsi haqqında danışılan problemin müvəffəqiyyətli həllinə öz dinamik təsirini göstərəcəkdir.

Dissertasiyanın "**Didaktik oyunların təşkili zamanı kiçikyaşlı məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması üzrə işin əsas istiqamətləri və metodikası**" adlanan II fəsli 3 paraqrafı əhatə edir. **"Didaktik oyunların təşkili zamanı kiçikyaşlı məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması işinin əsas istiqamətləri"** adlanan birinci paraqrafda ibtidai siniflərdə tədris olunan istər humanitar fənlərin, istər təbiət fənlərinin, istərsə də dəqiq elmlərlə bağlı olan fənlərin tədrisi üçün müvafiq didaktik oyunların təşkili araşdırılır. Qeyd olunur ki, didaktik oyunlar şagirdlərə həm ümumi biliklər, həm də xüsusi biliklər qazandırmağa kömək edir. Çünki belə oyunlarda sistem halında verilən didaktik biliklər şagirdlərin yaradıcı fəallığını artırmış olur. Nəticədə şagirdlər elmi biliklərin əsaslarına yiyələnməklə yanaşı, onlar bir sıra bədii yaradıcılıq qabiliyyətləri əldə edə bilirlər. Bu prosesdə ibtidai sinif müəllimlərinin şagirdlərin bədii yaradıcılıq qabiliyyətləri ilə bağlı nəzəri və praktik cəhətdən hazırlıqları əsas şərtlərdən hesab olunur.

Əlbəttə ki, kiçikyaşlı məktəblilərin bədii yaradıcılıq qabiliyyətləri hər hansı fəaliyyət prosesində aşkara çıxır. Hər hansı bir fəaliyyət prosesində aşkara çıxan yaradıcı bacarıqlar həmin fəaliyyətin yalnız müvəffəqiyyətli icrası zamanı özünü göstərir. Kiçikyaşlı məktəblilərin yaradıcı fəaliyyətlərinin reallığını təmin edən bilik, bacarıq və vərdişlərə yiyələnmə dinamikası özünü göstərdiyi təqdirdə bədii yaradıcılıq qabiliyyətləri üzə çıxa bilər. Didaktik oyunların təşkili zamanı kiçikyaşlı məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərini aşkara çıxartmaq üçün məqsədyönlü, planlı, mütəşəkkil işlər apararkən onlardakı bu qabiliyyətin irsi olduğunu və yaxud sonradan qazanılma olduğunu düzgün müəyyənləşdirmək lazım gəlir. Ona görə ki, uşaqların birində məlahətli səs, yəni vokal qabiliyyətləri, digərlərində instrumental ifaçılıq, təsviri incəsənət, rəqs etmək, aktyorluq kimi qabiliyyətlər özünü bu

və ya digər dərəcədə göstərir. Məhz ona görə belə uşaqları ibtidai siniflərdən başlayaraq aşkara çıxarmaq daha məqsədəuyğundur. Aparılan təhlillər zamanı aktyorlardan C.Mirzəyev, S.Şəfiyev nümunə olaraq göstərilmiş, onların istedadlarının məktəb vaxtı müəyyənləşdirilməsi faktları əks olunmuşdur.

II fəslin **“Təlim prosesində didaktik oyunların təşkili zamanı şagirdlərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması metodikası”** adlanan ikinci paraqrafında qeyd olunur ki, şəxsiyyətyönümlü təhsilin yeni məzmununun yaradılması istiqamətində qarşıya qoyulan vəzifələrin ibtidai sinif müəllimləri tərəfindən günün tələbləri səviyyəsində həll edilməsindən ötrü “Azərbaycan dili”, “Təsviri incəsənət”, “Musiqi”, “Həyat bilgisi” fənlərinin tədrisi prosesində didaktik oyunların yeni modellərinin hazırlanması və tətbiq edilməsi məqsədəuyğundur. Hər şeydən əvvəl ona görə ki, təlim prosesində didaktik oyunların təşkili zamanı şagirdlərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması mühüm aktuallıq kəsb edir. Çünki şagirdlərin şəxsiyyətyönümlülük səviyyəsinin yüksəldilməsində təlim prosesində didaktik oyunların təşkili və bu proses zamanı uşaqlarda bədii yaradıcılıq qabiliyyətlərinin aşkara çıxarılması ən mühüm aktual məsələ kimi qarşıda durur. Ölkəmizdə kurikulum təlimi üzrə fənlərin tədrisi prosesində ayrı-ayrı mövzuların öyrədilməsi zamanı şagirdlərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması üçün geniş imkanlar mövcuddur.

Paraqrafda ibtidi siniflərdə tədris olunan “Azərbaycan dili”, “Təsviri incəsənət”, “Musiqi”, “Həyat bilgisi” dərsliklərində olan mövzulara uyğun bir neçə didaktik oyun növlərinə aid nümunələr göstərilmişdir.

Bu məqsədlə təşkil olunan didaktik oyunlar vasitəsilə öyrədici materiallar tətbiq olunmuşdur. Eksperiment sinifdə sorğu anketinə cavab verən şagirdlərlə aparılan fərdi söhbətlərdən aydın oldu ki, onların demək olar ki, hamısı öyrədici materialları sevə-sevə öyrənmiş və onlara verilən tapşırıqları maraqla mənimsəmişlər.

Aparılan pedaqoji eksperimentin nəticələri bunu deməyə əsas verir ki, təlim prosesində didaktik oyunların mövzularının düzgün

seçilməsi, ssenarilərin nümunəvi hazırlanması, uğurlu rol bölgüsü, bədii yaradıcılıq nümunələrinin tələb olunan səviyyədə tətbiqi şagirdlərin bilik dairəsini genişləndirir, onların estetik dünyagörüşünü inkişaf etdirir və ən əsası, bədii yaradıcılıq qabiliyyətlərini formalaşdırır. Paraqrafda pedaqoji ekperimentin müsbət nəticələri də əks olunmuşdur.

II fəslin üçüncü paraqrafı **“Dərsdənkənar tədbirlərdə didaktik oyunların təşkili zamanı kiçikyaşlı məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması yolları”** adlanır. Bu paraqrafda ümumtəhsil məktəblərinin ibtidai siniflərində fənlərin tədrisi prosesində didaktik oyunların təşkili ilə yanaşı, dərsdənkənar tədbirlərdə də didaktik oyunlardan istifadə edilməsinin şagirdlərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması baxımından mühüm əhəmiyyəti göstərilmişdir. Dərsdənkənar tədbirlərdə təşkil olunan didaktik oyunlar içərisində süjetli-rollu, musiqili-didaktik oyunlar, milli-mənəvi dəyərlərə dair didaktik oyunlar, təbiət hadisələrinə dair didaktik oyunlar ilə yanaşı, hərəkətli-rollu oyunlar, etnopedaqoji materiallara dair didaktik oyunlar, intellektual didaktik oyunlar, teatrlaşdırılmış didaktik oyunlar və s. bu kimi oyunları xüsusi qeyd edilmişdir. Göstərilir ki, il boyu təşkil olunan dərsdənkənar tədbirlərin hər birində bədii hissənin olması zəruri sayılır. Hansı ki, həmin bədii hissəyə qeyd olunan didaktik oyunların daxil edilməsi didaktik oyunun iştirakçıları olan məktəblilərlə yanaşı, tamaşaçı məktəblilərin də elmi dünyagörüşlərinin və bədii yaradıcılıq qabiliyyətlərinin formalaşması üçün geniş imkanlar yaratmış olur.

Dərsdənkənar vaxtlarda şagirdlərin didaktik oyunlara cəlb edilməsi və bu oyunların məqsədyönlü, planlı, mütəşəkkil təşkili ibtidai sinif müəllimlərindən, eləcə də məktəbin dərsdənkənar tədbirlərinə rəhbərlik edənlərdən zəngin təcrübə və nümunəvi səriştə tələb edir. Bu, o deməkdir ki, didaktik oyunları təşkil edən ibtidai sinif müəllimləri, hər şeydən əvvəl, özlərini bu prosesə hazırlamaqla şagirdlərin bədii yaradıcılıq qabiliyyətlərinin inkişafına müsbət təsir edə bilərlər.

Didaktik oyunları təşkil edərkən etnopedaqoji nümunələrdən istifadə etməyin əhəmiyyəti böyükdür. Birincisi ona görə ki,

kiçikyaşlı məktəblilər öz soyköklərinə aid olan ədəbi-bədii materiallarla tanış olurlar. İkincisi, etnopedaqoji materiallarda yer alan vətənpərvərlik, yurdsevərlik, ataya hörmət, anaya məhəbbət, dostluq, yoldaşlıq, qardaşlıq, həmrəylik, əl tutmaq, dada yetmək, köməklik göstərmək, şəfqət vermək, pay vermək kimi əxlaqi normalar onlarda ən zəruri mənəvi keyfiyyətləri inkişaf etdirir.

Didaktik oyunların təşkili zamanı göstərilən etnopedaqoji nümunələrdən istifadə edərkən onların müasir dövrün tələblərinə uyğunlaşdırılması da vacib sayılır. Dərsdənkənar tədbirlərdə etnopedaqoji materiallara dair didaktik oyunları əfsanə və rəvayətlərin mövzuları əsasında təşkil etmək şagirdlərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

təşkil olunan didaktik oyunlar vasitəsilə şagirdlərin bədii yaradıcılığa sövq edilməsi, milli rəqslərimiz, milli geyimlərimiz, rəngli əl işləri kiçikyaşlı məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərini ortaya çıxarmış olur.

Dərsdənkənar didaktik oyunlar zamanı şagirdlər aşağıdakı keyfiyyətlərə yiyələnirlər:

- Didaktik oyunlar vasitəsilə yeni biliklər qazanırlar;
- Didaktik oyunlar prosesində yeni biliklər əldə edən şagirdlər bir sıra  əmək bacarıqlarına yiyələnir və ən zəruri vərdişlər əldə edirlər;
- Didaktik oyunların məqsədyönlü, planlı, mütəşəkkil olaraq təşkil olunması şagirdlərin estetik-bədii zövqləri ilə yanaşı, əxlaqi-mənəvi keyfiyyətlərinin vəhdətdə inkişafına təsir göstərmiş olur;
- Didaktik oyunların mövzularının düzgün seçilməsi oyunun təşkilinə istiqamət verir. Belə yanaşma prosesində isə şagirdlərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması üçün geniş imkanlar açılır;
- Didaktik oyunların təşkili zamanı əsas amillərdən bəhrələnməklə şagirdlərin bədii yaradıcılıq qabiliyyətlərini günün tələbləri səviyyəsində formalaşdırmaq olar;
- İstedadlı uşaqların üzə çıxarılması, onlarda bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması üçün didaktik oyunlardan vasitə

kimi istifadə etmək daha məqsədəuyğun olar.

Beləliklə, didaktik oyunların kiçikyaşlı məktəblilərdə bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması işində vasitə rolunu oynaması üzrə aparılan eksperiment işinin nəticələri dissertasiyada qarşıya qoyulan fərziyyələrin doğruluğuna, məqsədlərin gözlənilən dərəcədə əldə olunmasına və müdafiə üzrə verilən müddəaların reallaşmasına əsas verir.

Dissertasiya işinin "Nəticə" hissəsində tədqiqatın yekunları aşağıdakı şəkildə ümumiləşdirilmiş və təkliflər irəli sürülmüşdür.

1. Azərbaycanda həyata keçirilən təhsil islahatlarına dair direktiv sənədlərdə, o cümlədən "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda şəxsiyyətyönümlü təhsilin yeni məzmununun yaradılması, ibtidai siniflərdə fənlərin tədrisinin yeniləşməsi və bu prosesdə didaktik oyunların ən müasir modellərinin hazırlanaraq təqdim olunması şagirdlərin elmi dünyagörüşləri ilə yanaşı, onların bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılmasını təmin etmiş olur.

2. Didaktik oyunların təşkili prosesində kiçikyaşlı məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması işinin mahiyyətinin, məzmununun, məqsəd və vəzifələrinin günün tələbləri səviyyəsində aydınlaşdırılması bu sahədə görülən işlərin və aparılan tədqiqatların metodologiyasının düzgün müəyyənləşdirilməsinə zəmin yaradır.

3. Kiçikyaşlı məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması prosesində planlı şəkildə təşkil edilmiş didaktik oyunların geniş imkanlarından faydalanmaq məqsədəuyğundur. İbtidai sinif müəllimləri təhsilalanlar üçün onların yaşına, fərdi xüsusiyyətlərinə, qavrama qabiliyyətlərinə və eləcə də bədii zövqlərinə uyğun, eyni zamanda onların bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılmasına təsir edən didaktik oyunların təşkilinə üstünlük verməlidirlər.

4. Tədqiqatlar qəti şəkildə deməyə əsas verir ki, "Azərbaycan dili", "Həyat bilgisi", "Təsviri incəsənət", "Musiqi" fənlərinin tədrisi zamanı düzgün təşkil edilmiş süjetli-rollu didaktik oyunlar, musiqili-didaktik oyunlar, hərəkətli-rollu didaktik oyunlar, intellektual-

didaktik oyunlar, təbiət hadisələrinə dair didaktik oyunlar, milli-mənəvi dəyərlərə dair didaktik oyunlar, nağıllar və dastanlar aləminə dair didaktik oyunlar ibtidai sinif şagirdlərində bədii-estetik zövqü, elmi dünyagörüşü, milli-mənəvi dəyərlərə olan sevgi hissini formalaşdırmaqla yanaşı, onların bədii yaradıcılıq qabiliyyətlərinin inkişafına güclü təsir göstərir.

İbtidai siniflərdə təşkil edilən didaktik oyunlar kiçikyaşlı məktəblilərin təhsil səviyyəsini yüksəltdiyi kimi, şagirdlərin ideya-siyasi, əxlaqi-mənəvi, əmək, işgüzarlıq, ekoloji tərbiyəsində mühüm rol oynayır. Bu cəhətdən kiçikyaşlı məktəblilər üçün didaktik oyunlar təşkil edilərkən təlim-tərbiyənin prinsipləri diqqətdə saxlanılmalı, oyun iştirakçılarının bilik səviyyəsi, elmi dünyagörüşləri, bədii zövqləri, fərdi yaradıcı qabiliyyətləri nəzərə alınmalıdır.

5. İbtidai sinif şagirdləri ilə keçirilən təlim prosesində, həmçinin dərsdənkənar tədbirlərdə müasir tələblərə cavab verən didaktik oyunların yeni modellərinin hazırlanmasına ciddi ehtiyac vardır. Sağlam psixoloji mühitdə təşkil olunan didaktik oyun iştirakçının yaradıcı təfəkkürünü inkişaf etdirir, onun bədii yaradıcılıq qabiliyyətlərini formalaşdırır. Bu baxımdan didaktik oyunların təşkili zamanı kiçikyaşlı məktəblilərin psixoloji xüsusiyyətlərinin nəzərə alınması mütləqdir. Məhz bu halda didaktik oyunlar keçirilərkən qız və oğlanların fəaliyyətini düzgün tənzimləmək mümkündür.

6. Faktlar deməyə əsas verir ki, didaktik oyunların təşkili zamanı kiçikyaşlı məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin aşkara çıxarılması, inkişaf etdirilərək formalaşdırılması gələcəkdə onların istedadlı şəxsiyyətlər kimi tanınmasını şərtləndirir. Bununla belə, didaktik oyunların keçirilməsi prosesində kiçikyaşlı məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılmasının əsas istiqamətləri elmi cəhətdən müəyyənləşdirilməli, ibtidai sinif müəllimləri nəzəri-metodik ədəbiyyatlarla təmin olunmalıdır. Ayrı-ayrı didaktik oyunlar üçün müəyyənləşdirilmiş elmi-pedaqoji və metodik istiqamətlərin ibtidai sinif müəllimlərinə köməklik göstərəcəyi şübhəsizdir.

7. Təlim-tərbiyə əhəmiyyəti nəzərə alınmaqla düzgün

planlaşdırılan musiqili-didaktik oyun şagirdlərin hərtərəfli inkişafına ciddi təsir göstərir, onlarda vətənsevərlik, yurdsevərlik, torpağı yad nəzərlərdən qorumaqlıq, qoçaqlıq, igidlik, mübarizlik, qələbə əzmi, düşmənə nifrət, şəhidlərimizə hörmət və ehtiram hissləri aşılayır.

Milli-mənəvi dəyərlərin tərənnümünə hesablanmış didaktik oyunlar kiçikyaşlı məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərini inkişaf etdirməklə bərabər, onların əxlaqi-mənəvi səviyyələrinin yüksəlməsinə ciddi təsir göstərir. Didaktik oyunların təşkili zamanı şagirdlərin estetik-bədii zövqlərinin tərbiyə olunması, eləcə də onların mədəni istirahətlərinin təşkili də diqqətdə saxlanılmalıdır.

8. Kiçikyaşlı məktəblilərlə düzgün təşkil edilmiş didaktik oyun şagirdlərin həyat bilgisinə dair çoxsaylı məlumatlarla tanış olmalarına imkan yaradır. Oyun prosesində şagirdlər mühakimələr yürüdür, mübahisələr edir, mühüm tarixi faktları yada salır, ağaclara, meyvələrə, güllərə və çiçəklərə dair biliklərini tətbiq etmək imkanı qazanırlar. Didaktik oyunun gedişində ardıcıllıqla həyata keçirilən işlər şagirdlərin, eyni zamanda, bədii yaradıcılıq qabiliyyətlərinin inkişafına əsaslı dərəcədə təsir göstərir.

9. Didaktik oyunların məqsədyönlü, planlı, mütəşəkkil olaraq təşkili şagirdlərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması üçün vasitə rolunu oynayır. Prinsipcə, didaktik oyunların düzgün təşkili prosesində şagirdlər yaradıcı fəaliyyətə cəlb olunurlar. Şagirdlərin yaradıcı fəaliyyəti onların estetik-bədii zövqləri ilə yanaşı, əxlaq normalarının tənzimlənməsinə də təsir göstərir. Şagirdlərin belə yaradıcı fəaliyyəti onlarda hərtərəfli qabiliyyətlərin, o cümlədən bədii yaradıcılıq qabiliyyətlərinin inkişafını daha çox stimullaşdırmış olur.

10. Dərsdənkənar tədbirlərdə təşkil edilən didaktik oyunlar şagirdlərə yeni biliklər qazandırdığı kimi, onların bir sıra əmək bacarıqlarına yiyələnmələrini də şərtləndirir. Bu isə öz növbəsində kiçikyaşlı məktəblilərin ən zəruri vərdişlər qazanmaları ilə nəticələnir.

Tədqiq edilən problemlə bağlı aşağıdakı **təkliflər** irəli sürülmüşdür:

- Ümumtəhsil məktəblərində didaktik oyunlar üçün xüsusi tipli

kabinetlərin yaradılması və həmin kabinetlərdən birinin "Didaktik oyunlar kabineti" adlandırılması yaxşı olardı.

- Didaktik oyunlarla bağlı xüsusi tipli kabinetlərə didaktik oyunların ayrı-ayrı növlərinin təşkili üçün lazım olan materialların qoyulması faydalı olardı. Bu materiallar içərisində təsviri incəsənətə, o cümlədən qrafika, boyakarlıq, heykəltəraşlıq, dekorativ-tətbiqi sənət, milli memarlıq kimi nümunələrin, musiqi alətlərinin, not yazılarının, rəqs geyimlərinin, rəqs füqurlarına dair sxemlərin və didaktik oyunlara dair şüarların, trafaretlərin və digər didaktik vasitələrin yer alması yaxşı olardı;
- İbtidai sinif şagirdləri üçün onların yaş, fərdi və qavrama qabiliyyətlərinə uyğun olan bədii yaradıcılıq dərnəklərinin təşkili faydalı olardı;
- Kiçikyaşlı məktəblilər üçün ayrı-ayrı didaktik oyunların növləri üzrə maraq kurslarının yaradılması haqqında danışılan problemin müvəffəqiyyətli həllinə köməklik göstərmiş olardı;
- Ümumtəhsil məktəblərində ibtidai sinif müəllimləri və digər mütəxəssislər tərəfindən hazırlanan didaktik oyunların televiziya verilişlərində nümayiş etdirilməsi ölkəmizin digər ümumtəhsil məktəblərində didaktik oyunlar vasitəsilə şagirdlərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması işinə öz müsbət təsirini göstərmiş olardı.

Dissertasiyanın əsas müddəaları müəllifin çap olunmuş aşağıdakı əsərlərində öz əksini tapmışdır:

1. İbtidai siniflərdə didaktik oyunların kreativ təşkilinin şagirdlərin bədii yaradıcılıq qabiliyyətinin formalaşdırılmasında rolu // – Bakı: "Pedaqogika" jurnalı, – 2020. № 1, – s. 23 - 32

2. Didaktik oyunların kreativ təşkili zamanı kiçikyaşlı məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılmasına təsir edən əsas amillər // – Naxçıvan: Naxçıvan Müəllimlər İnstitutunun Elmi əsərləri, – 2020. № 4, – s. 59 - 63

3. Didaktik oyunların kurikulum tələbləri əsasında təşkilinin kiçikyaşlı məktəblilərin yaradıcı qabiliyyətlərinin formalaşmasına təsiri // "Ümumi təhsildə kurikulum islahatları: nəticələr və perspektivlər – 2021". Respublika elmi – praktik konfransı. –

Naxçıvan: –21 may 2021, – 2021, –s. 122 – 123

4. Didaktik oyunların təşkili zamanı kiçikyaşlı məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılmasının psixoloji əsasları // Azərbaycan Elm Mərkəzi. “IV beynəlxalq elmi araşdırmalar” konfransı. – Bakı : – 6 iyun 2021. – s. 47 – 53

5. Формирование художественных творческих способностей школьников младшего возраста посредством дидактических игр // LXXIV международной научной конференции. “Актуальные научные исследования в современном мире”. – Украйна: выпуск 6 (77) часть 7, –Июнь 2021 г. – с. 129 – 139

6. Didaktik oyunların təşkili zamanı etnopedaqoji nümunələrdən istifadənin əhəmiyyəti // – Naxçıvan: Naxçıvan Müəllimlər İnstitutunun Elmi əsərləri, – 2021. № 3, – s. 43 - 69

7. Dərsdənkənar tədbirlərdə didaktik oyunların təşkili zamanı kiçikyaşlı məktəbilərin bədii yaradıcılıq qabilyyətlərinin formalaşdırılması // – Naxçıvan: Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, – 2021, № 1 (110), –s. 160 – 165

8. Didaktik oyunlarin təşkili zamanı kiçikyaşli məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması işinin elmi - pedaqoji əsasları // The XVII İnternational Scientific Symposium “Karabakh: Way To the Victory”, – Göteborg / Sweden. – 2021. – August 28, – s. 193 – 197

9. İbtidai siniflərdə təsviri incəsənət dərslərində didaktik oyunların təşkilinin istedadlı şagirdlərin formalaşmasinda əhəmiyyəti // “Müasir təhsilin inkişaf strategiyaları: uğurlar və çağırışlar”. Beynəxalq elmi konfransı. – Naxçıvan: – 26-27 noyabr 2021. –s. 642 - 644

10. Didaktik oyunların təşkili zamanı kiçikyaşlı məktəbilərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması işinin əsas istiqamətləri // – Bakı : Azərbaycan Respublikası Təhsil İnstitutu. “Elmi əsərlər” jurnalı, – 2021, cild 88, № 6, – s. 192 – 195

11. The place, role and significance of the use of didactic games in the development of artistic creative abilities of younger schoolchildren //– Россия. Проблемы науки. – 2022. – № 1 (69), - с. 45 - 49

12. Musiqi fənninin tədrisi zamanı kiçikyaşlı məktəblilərin bədii yaradıcılıq qabiliyyətlərinin formalaşdırılmasında didaktik oyunların təşkili metodikası // – Naxçıvan: Naxçıvan Universitetinin Elmi əsərləri, – 2022. № 1 (25), – s. 336-341

Dissertasiyanın müdafiəsi ____ _____2022-ci il tarixində saat ____ Naxçıvan Müəllimlər İnstitutu nəzdində fəaliyyət göstərən FD 2.40 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Naxçıvan MR, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 1, Az 7003, Naxçıvan Müəllimlər İnstitutu

Dissertasiya ilə Naxçıvan Müəllimlər İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Naxçıvan Müəllimlər İnstitutunun rəsmi internet saytında (www.nmi.edu.az) yerləşdirilmişdir.

Avtoreferat ____ ________ 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 05.07.2022

Kağızın formatı: 60x84 1/16

Həcm: 36420

Tiraj: 100